# İmadəddin Nəsiminin 650 illik yubileyi qeyd edilib

Şabran şəhər S.Zülfüqarov adına 3 nömrəli tam orta məktəbdə İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan dili və ədəbiyyat müəllimi Fariz Yusifzadə 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan olunduğunu və dahi şairin 650 illik yubileyinin dövlət səviyyəsində keçirildiyini qeyd edib. O bildirib ki, Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzindədir.

Sonra Azərbaycan dili və ədəbiyyat müəllimi Məhəbbət Rəsulova ədəbiyyatımızda fəlsəfi şeirin əsasını qoyan Nəsiminin milli Azərbaycan ədəbi dilinin daha da inkişaf etdirilməsi və onun yeni-yeni söz və ifadələrlə zənginləşdirməsində mühüm rol oynadığını tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Məktəblilər İ.Nəsiminin qəzəllərini söyləyiblər.

Daha sonra mütəfəkkirin həyat və yaradıcılığından bəhs edən videoçarx nümayiş etdirilib.

**Gülər HÜSEYNOVA,**
*Şabran Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

Azərbaycan müəllimi.- 2019.- 1 noyabr. S. 10.